SOCAR
Heydər Əliyev pr.121
AZ 1029, Azərbaycan,Bakı
Tel:   (99412)521 03 32
Faks:(99412)521 03 83
e-mail:info@socar.az
www.socar.az

**ƏMR**

№ SOCAR18100003030004002OA00060

Bakı,  13 Aprel 2018

## Standartların təsdiq edilməsi haqqında

Standart sənəd layihələrinin məsləhətçi şirkət cəlb edilməklə hazırlanmasını, SOCAR-ın müvafiq qurumları və Baş ofisin aidiyyəti struktur bölmələri ilə razılaşdırılmasını nəzərə alaraq test imtahanlarının təşkili, test mütəxəssislərinin fəaliyyətinin tənzimlənməsi, test tapşırıqları və yoxlama ölçmə materiallarının ekspertizası ilə əlaqədar münasibətlərin tənzimlənməsi məqsədilə

**əmr edirəm:**

1. **“**SOCAR üzrə test imtahanlarının təşkili (SOCARSS – 001.2018)” standartı təsdiq edilsin (Əlavə I).
2. “Test mütəxəssislərinin fəaliyyətinin tənzimlənməsi” (SOCARSS – 002.2018)” standartı təsdiq edilsin (Əlavə II).
3. “Test tapşırıqları və yoxlama-ölçmə materiallarının ekspertizası (SOCARSS – 003.2018)” standartı təsdiq edilsin (Əlavə III).
4. “SOCARSS – 001.2018”, “SOCARSS – 002.2018” və “SOCARSS – 003.2018” standartları üzrə nəzərdə tutulmuş məsul qurumun səlahiyyətləri SOCAR-ın Kadrların İdarə Edilməsi Komitəsinə həvalə edilsin.
5. “SOCARSS – 001.2018”, “SOCARSS – 002.2018” və “SOCARSS – 003.2018” standartları üzrə nəzərdə tutulmuş müvafiq struktur bölmənin səlahiyyətləri SOCAR-ın Baş ofisinin İnsan Resursları Departamentinə həvalə edilsin.
6. SOCAR-ın Baş ofisinin Hüquq İdarəsinə (E. Orucov) tapşırılsın ki, standartların qeydiyyatının aparılmasını təmin etsin.
7. SOCAR-ın Baş ofisinin İnformasiya Texnologiyaları Departamentinə (V. Əhmədov) tapşırılsın ki, standartların SOCAR-ın rəsmi veb-səhifəsində yerləşdirilməsini təmin etsin.

8. SOCAR-ın İnformasiya Texnologiyaları və Rabitə İdarəsinə (İ. Aslanov) tapşırılsın ki, standartların tətbiqi ilə bağlı zəruri proqram təminatı hazırlansın.
9. Bu əmrin icrasına nəzarət SOCAR-ın Kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidenti X. Məmmədova həvalə edilsin.

**Prezident**

**Rövnəq Abdullayev**

*Əlavə I*
*Azərbaycan Respublikasının Dövlət Neft*
*Şirkətinin ____________2018-ci il tarixli,*
*___________________ nömrəli əmri ilə*
*təsdiq edilmişdir*

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin standartlaşma sistemi**
**SOCAR üzrə test imtahanlarının təşkili**
(SOCARSS-001.2018)

---

**01.1. Standartlaşmanın məqsədi** – test imtahanlarının təşkili və həyata keçirilməsi ilə əlaqədar münasibətlərin tənzimlənməsidir.

**01.2. Məsul qurum** – SOCAR prezidentinin əmri ilə müəyyən edilir.

**01.3. Test tapşırıqlarının tərkibi -** imtahanda istifadə ediləcək tapşırıqların ümumi sayı, tapşırıqların növü (qapalı və ya açıq tipli test tapşırıqları, esse və s. tipli tapşırıqlar) və çətinlik üzrə konkret bölgüsü müvafiq struktur bölmə tərəfindən müəyyən edilir.

**01.4. Yoxlama-ölçmə materialı –** müəyyən istiqamətdə bilik və bacarıqların yoxlanılması məqsədilə hazırlanan vəsaitdir.

**01.5. Test tapşırığı** – test imtahanına cəlb edilən şəxsin müəyyən istiqamətdə bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi məqsədilə hazırlanan səmərəli yoxlama-ölçmə materialıdır.

**01.6. Namizəd** – bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi məqsədilə imtahan prosesində iştirak edən şəxsdir.

**01.7. Test-imtahan prosesi** - məhdud zaman kəsiyində, müəyyən olunmuş yerdə, bərabər şəraitdə, vahid texniki təlimat və metodiki göstərişlər çərçivəsində, çətinlik dərəcələri müxtəlif olan, keyfiyyətli, effektiv yoxlama-ölçmə materialları ilə təchiz olunmuş test tapşırıqları toplusuna məxsus sualların uyğun şəkildə cavablandırılması, qiymətləndirilməsi, nəticə çıxarılması, son nəticələrin statistik emalı, müqayisəli analizi və elmi-statistik təhlili prosesidir.

**01.8. Test imtahanının keçirilmə yeri, tarixi və vaxtı –** sifarişçi ilə razılaşdırılmaqla müvafiq struktur bölmə tərəfindən müəyyən edilir.

**01.9. Test imtahanının davametmə müddəti və ondan istifadə** - imtahanın davametmə müddəti müvafiq struktur bölmə tərəfindən namizədlərə verilən test tapşırıqlarının növündən və sayından asılı olaraq aşağıdakı qayda nəzərə alınmaqla müəyyən edilir:

1. qapalı tipli test tapşırıqlarının hər biri üçün 1 dəqiqə 30 saniyə;
2. açıq tipli test tapşırıqlarının hər biri üçün 2 dəqiqə;
3. esse tipli tapşırıqların hər biri üçün 30 dəqiqə.

Sahə üzrə vitse-prezidentin razılığı əsasında imtahanın davametmə müddəti dəyişdirilə bilər.

Namizəd ona ayrılmış vaxtdan istifadə etməkdə sərbəstdir. Ayrılmış vaxt qurtardıqda imtahan başa çatmış hesab edilir. Namizəd imtahanı müəyyən edilmiş vaxtdan tez başa çatdıra bilər və bu halda başa çatdırılmış imtahanın yenidən davam etdirilməsinə yol verilmir.

Texniki səbəblərdən imtahanın aparılması mümkün olmadıqda müvafiq struktur bölmənin qərarı əsasında imtahan davam etdirilə və ya yenidən aparıla bilər.

**01.10. Test-imtahan prosesinin təşkili və keçirilməsi –** test-imtahan prosesi müvafiq struktur bölmə tərəfindən təşkil edilir və həyata keçirilir. İmtahan prosesi bir qayda olaraq kompüterlərlə təchiz olunmuş auditoriyalarda təşkil edilir.

**01.11. Test imtahanlarında informasiya texnologiyalarından istifadə -** təyinatından və keçirilmə yerindən asılı olmayaraq test imtahanları xüsusi proqram təminatının köməkliyi ilə kompüterlərdən istifadə edilməklə həyata keçirilir. Zəruri hallarda test imtahanlarının kompüterlərdən istifadə edilməklə keçirilməsi mümkün olmadıqda imtahanlar digər vasitələrdən istifadə edilməklə keçirilə bilər.

**01.12. İştirakçıların təlimatlandırılması –** iştirakçılar test imtahanı başlamazdan əvvəl fövqəladə hallarda davranış, eləcə də test imtahanı qaydaları ilə bağlı təlimatlandırılır.

**01.13. Test imtahanlarının keçirilməsinə hazırlıq -** test imtahanlarının keçirilməsinə hazırlıq test tapşırıqlarının seçilməsi ilə başlanılır. İmtahandan əvvəl test tapşırıqlarının elektron bazasında (TTEB) saxlanılan hər bir test tapşırığının keçiriləcək test-imtahan növünə uyğunluğu yoxlanılır.

**01.14. İmtahan heyəti -** test imtahanının təşkili və keçirilməsinə məsul olan imtahan rəhbəri, nəzarətçilər və administratordur. İmtahan heyətinin tərkibi müvafiq struktur bölmə tərəfindən müəyyən edilir.

**01.15. İmtahan heyətinin hüquq və vəzifələri –** imtahan heyətinin sayı, hüquq və vəzifələri məsul qurum tərəfindən müəyyən edilir.

**01.16. Test imtahanı barədə namizədin məlumatlandırılması** – namizədlər imtahan gününə ən azı 3 gün qalmış müvafiq struktur bölmə tərəfindən müxtəlif üsullardan istifadə etməklə (elektron məktub, telefon zəngi, mobil telefon nömrəsinə ismarıc göndərilməsi və ya kütləvi informasiya vasitələrində elan yerləşdirilməsi) test imtahanlarına dəvət olunurlar. İstehsalat, təsərrüfat zərurəti ilə əlaqədar vətəndaşlar test imtahanlarına təyin olunmuş vaxtdan 2 gün əvvəl də dəvət oluna bilərlər. Dəvətdə imtahanın keçirilmə tarixi, saatı, keçirilmə yeri, imtahana buraxılış üçün zəruri olan sənədlərin siyahısı, eləcə də imtahan vaxtından ən azı 30 dəqiqə əvvəl təyin olunan yerə gəlmələri haqqında məlumat əks olunur.

**01.17. Test imtahanına buraxılış** – hər bir namizəd etibarlılıq müddəti başa çatmamış, üzərində şəkli əks olunmuş şəxsiyyətini təsdiq edən sənədini təqdim etməklə test imtahanına buraxılır. Namizədlərin imtahanlara buraxılış qeydiyyatı dəvətdə (elanda) müəyyən edilmiş vaxtdan ən azı 30 dəqiqə əvvəl başlanır. Namizədin üzərində şəxsiyyətini təsdiq edən hər hansı bir sənəd olmadıqda (etibarlılıq müddəti bitməyən şəxsiyyət vəsiqəsi,

hərbi bilet, xarici pasport, sürücülük vəsiqəsi, işçi vəsiqəsi və s.) və ya üzrsüz səbəbdən test-imtahan prosesinə müəyyən edilmiş vaxtdan gec (müddətdən asılı olmayaraq) gəldikdə, o imtahana buraxılmır. Test imtahanında iştirak etməyən vətəndaşların digər vaxtda imtahanda iştirak edib-etməyəcəyi məsələsi onun yazılı müraciəti əsasında müvafiq struktur bölmə tərəfindən müəyyən olunur.

**01.18. Test imtahan zalında davranış qaydaları -** test imtahanı başlamazdan əvvəl namizədlər test-imtahan prosesi, test tapşırıqlarının cavablandırılması şərtləri, davranış, imtahan prosesinin quraşdırılmış kamera vasitəsi ilə izlənilməsi, test tapşırıqlarının surətinin imtahan zalından kənara çıxarılmasının qadağan olunması barədə məlumatlandırılırlar.

**01.19. İmtahandan kənarlaşdırma** - imtahanın keçirildiyi müddətdə müəyyən edilmiş qaydalara riayət etməyən vətəndaşlar imtahan zalından kənarlaşdırılır və onların imtahanda əldə etdiyi nəticələr ləğv edilir. Şəxsi mobil telefonu, imtahan prosesinə maneə ola biləcək digər qurğuları və ya köməkçi vasitələri təhvil verməyən namizəd imtahan zalına buraxılmır və ya imtahan zamanı üzərində yuxarıda qeyd olunan vasitələr aşkar olunduqda namizəd imtahan zalından çıxarılır.

**01.20. İmtahan prosesinin müşahidəsi –** məsul qurumun müəyyən etdiyi qaydada müxtəlif kütləvi informasiya vasitələrinin, eləcə də kənar təşkilatların nümayəndələri test-imtahan prosesini müşahidə edə bilərlər. Test-imtahan prosesinin müşahidəsi elə təmin edilməlidir ki, o bu prosesin gedişinə hər hansı formada təsir etməsin.

**01.21. İmtahan prosesinə nəzarət** – test-imtahan prosesinə nəzarəti bu standartın tələbləri nəzərə alınmaqla müvafiq struktur bölmə tərəfindən müəyyən edilən imtahan nəzarətçiləri təmin edirlər.

**01.22. Namizədin imtahan nəticələrinin qiymətləndirilməsi** - test imtahanında namizədin cavabları bal sistemi tətbiq edilməklə aşağıdakı qaydada qiymətləndirilir:

- qapalı tipli test tapşırıqlarının hər birinin doğru cavablandırılması 1 balla, yanlış cavablandırılması və ya cavablandırılmaması 0 balla; səhv təqdim edilmiş cavablandırılan hər bir test tapşırığı 1 balla;
- açıq tipli test tapşırıqlarının hər birinin doğru cavablandırılması 2 balla, yanlış cavablandırılması və ya cavablandırılmaması 0 balla; səhv təqdim edilmiş cavablandırılan hər bir test tapşırığı 2 balla;
- esse tipli tapşırıqların qiymətləndirilməsi cavabın həcmindən, strukturundan, fikirlərin və baxışların məntiqlilik dərəcəsindən, nümayiş etdirilən yaradıcı yanaşmadan, arqumentasiyadan, söz ehtiyatından, orijinallıqdan, üslubdan və dil qaydalarına riayət edilməsindən asılı olaraq 0 baldan 30 bala qədər, cavablandırılmaması 0 balla müəyyən olunur.

**01.23. Test bloku** – SOCARSS-014.2011 standartının tələbləri nəzərə alınmaqla test tapşırıqlarının strukturuna uyğun olaraq onların müxtəlif bölmələr üzrə qruplaşdırılmasıdır.

**01.24. Çəki əmsalı** – test tapşırıqlarının strukturu nəzərə alınmaqla hər bir blok üzrə fərdi qaydada müəyyənləşdirilən və həmin blok üzrə toplanılan balın vurulmalı olduğu ədəddir. Çəki əmsalı sifarişçi tərəfindən müəyyənləşdirilir.

**01.25. Əmsallaşmanın tətbiqi –** namizədin test imtahanında topladığı ümumi bal hesablanarkən əvvəlcə hər blok üzrə ballar hesablanır, sonra onlar müvafiq blokların çəki əmsallarına vurulmaqla cəmlənir. Bloklar üzrə çəki əmsalları müəyyənləşdirilmədikdə həmin əmsal ədədi 1 kimi qəbul edilir.

**01.26. Namizədin topladığı bal –** namizədin cavablandırdığı test tapşırıqları üzrə topladığı balların cəmidir.

**01.27. Plan yeri –** test imtahanından növbəti mərhələyə müvəffəqiyyətlə keçməsi planlaşdırılan namizədlərin sayıdır.

**01.28. Test blokları üzrə keçid balı –** sifarişə uyğun olaraq test imtahanında təqdim edilən test bloklarının hər biri üzrə müəyyənləşdirilmiş minimal keçid balıdır.

**01.29. Test imtahanı üzrə yekun keçid balı –** test imtahanı üzrə yekun keçid balı həmin imtahandan sonra formalaşan və müvafiq imtahan üzrə ən aşağı balı toplayaraq müvəffəqiyyətlə keçmiş namizədin balına bərabər olan göstəricidir. Plan yerinə uyğun test imtahanını müvəffəqiyyətlə keçmiş namizədlərin müəyyənləşdirilməsi onların topladıqları ballara uyğun olaraq yuxarıdan aşağı olmaqla həyata keçirilir. Keçid balı test imtahanında iştirak edən namizədlərin sayından, imtahan nəticələrindən və plan yerlərindən asılı olur.

**01.30. Test imtahanını müvəffəqiyyətlə keçən –** test imtahanı üzrə yekun keçid balını və ondan yüksək balı toplayanlar imtahandan müvəffəqiyyətlə keçmiş sayılırlar. Hər hansı bir blok üzrə müəyyənləşdirilmiş keçid balını toplamayanlar topladığı ümumi baldan asılı olmayaraq növbəti mərhələyə buraxılmır. Namizədlərin topladıqları ballar eyni olduqda çəki əmsalı daha yüksək olan test bloku üzrə yuxarı bal toplamış namizəd test imtahanını müvəffəqiyyətlə keçmiş sayılır.

**01.31. Keçid balı –** test imtahanından əvvəl məsul qurum tərəfindən müəyyənləşdirilən və həmin balı və ondan yuxarı balları toplayan namizədlərin imtahandan müvəffəqiyyətlə keçməsini nəzərdə tutan göstəricidir.

**01.32. İmtahanın təxirə salınması –** texniki səbəblərdən və ya fövqəladə hallarla əlaqədar imtahanın başlanılması və ya davam etdirilməsi planlaşdırılan vaxtda mümkün olmadıqda həmin imtahan təxirə salınır.

**01.33. Namizədlərin yekun imtahan nəticələrinin göndərilməsi –** test-imtahan nəticələri emal olunduqdan sonra yekun nəticələrin namizədlərə göndərilməsi 01.16 bənddə qeyd olunmuş üsullardan istifadə edilməklə həyata keçirilir.

**01.34. Test imtahanının yekunlaşması** – dəvət edildikləri vaxt üzrə namizədlərin test imtahanında iştirakı başa çatdıqdan sonra sifarişə uyğun olaraq imtahan nəticələri emal olunur. İmtahanın yekun nəticələrinin namizədlərə və sifarişçiyə göndərilməsi ilə test imtahanı başa çatdırılır.

01.35. **Test-imtahan nəticələri ilə bağlı müraciətlərin araşdırılması** – test imtahanının nəticələri ilə razı olmadıqda namizədin müraciətinə məsul qurum tərəfindən təyin olunan şəxsin iştirakı ilə yenidən baxılır, müvafiq qərar qəbul edilir və maraqlı tərəf bu haqda məlumatlandırılır.